# APARICI MÜHASİB (VERGİLƏR ÜZRƏ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

## 1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu;
## 2.Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
## 3.Azərbaycan Respublikasının Əmək Məcəlləsi üzrə:

*Məzuniyyət vaxtı üçün əmək haqqının ödənilməsi qaydaları*
*Əmək normaları və işəmuzd qiymətləri*
*Əməyin ödənilməsi normaları*
*Əmək haqqının ödənilməsinin formaları, qaydaları və əmək haqqından tutulmalar*
*Orta əmək haqqı və onun saxlanılması üzrə təminatlar*
*Əmək və icra intizamına əməl edilməsinə görə fərqlənmiş işçilərin mükafatlandırılması*
*Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun növləri*
*İşəgötürənin işçiyə vurduğu ziyana görə maddi məsuliyyət daşıdığı hallar*
*İşçiyə dəymiş maddi ziyanın məbləğinin müəyyən edilməsi və ödənilməsi qaydası*
*İşçinin orta aylıq əmək haqqı məbləğinədək maddi məsuliyyəti*
*Tam maddi məsuliyyət daşınması barədə yazılı müqavilələrin bağlanması*
*İşəgötürənə vurulan ziyanın məbləğinin işçidən tutulması qaydası*
*İşçinin sağlamlığının mühafizəsi məqsədi ilə başqa yüngül işə keçirildiyi və əmək haqqının saxlandığı hallar*
*Soyuq və isti havalar şəraitində fasilələr və işin dayandırılması*
*Əməyin mühafizəsinin təmin edilməsi üçün iş dayandırıldıqda başqa işə keçirmə*
*Hamilə və yaş yarımadək uşaqlı qadınların daha yüngül işə keçirilməsi*
*Uşağın yedizdirilməsi üçün fasilələr*
*Qadınlar üçün natamam iş vaxtı müəyyən edilən hallar və həkim müayinəsi zamanı əmək haqqının saxlanılması*
*Kənd təsərrüfatı müəssisələrində iş vaxtının və əməyin ödənilməsinin tənzimlənməsi xüsusiyyətləri*
*Tətildə iştirakdan imtina etmiş şəxslərin təminatları*
*Tətil iştirakçılarının əmək haqqının ödənilməsi*
*Əmək müqaviləsinin ləğv edilməsi qaydalarına işəgötürən tərəfindən əməl olunmamasının hüquqi nəticələri*
*İşçilərin sosial sığorta olunması*

## 4.Azərbaycan Respublikası Nazirlər Kabinetinin sahə üzrə qərar və sərəncamları üzrə:

*- Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin müəyyən edilməsi;*
*-Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin müəyyən edilməsi*
*- Ezamiyyə xərclərinin hesablanması*
*- Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə müavinətin hesablanması*
*- Ciddi hesabat blanklarının tətbiqi və uçotu qaydaları*

**5.Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə:**

*"Mal-material ehtiyatları" adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Pul vəsaitinin hərəkəti haqqında" 7 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı 8 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Hesabat tarixindən sonra baş vermiş hadisələr" adlı 10 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Mənfəət vergisi" adlı 12 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Torpaq, tikili, avadanlıqlar" adlı 16 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Gəlir" adlı 18 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Borclar üzrə məsrəflər" adlı 23 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Aktivlərin dəyərdən düşməsi" adlı 36 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Qiymətləndirilmiş öhdəliklər, şərti öhdəliklər və şərti aktivlər" adlı 37 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı*
*"Qeyri-maddi aktivlər" adlı 38 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı.*

## Ədəbiyyat

1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, www.maliyye.gov.az;
2.Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
4."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 716- IIQ, 29 iyun 2004-cü il;
5."Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, 250-IQ, 18 fevral 1997-ci il;
6."Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli qərarı."Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu, 223-IIQ, 4 dekabr 2001-ci il;
7. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu, 55-IIIQ, 7 fevral 2006-cı il;
8."Ezamiyyə xərclərinin normaları haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 yanvar 2008-ci il tarixli 14 nömrəli Qərarı;
9."Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin müəyyən edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 15 iyul 2000-ci il tarixli 126 nömrəli Qərarı;
10.Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin müəyyən edilməsi və məzuniyyət vaxtı üçün orta əmək haqqının əmsallaşdırılması qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 avqust 1999-cu il tarixli 137 nömrəli Qərarı;
11."Ciddi hesabat blanklarının tətbiqi və uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirinin 2013-cü il 9 yanvar tarixli Q-02 nömrəli Qərarı.
12.Q.S.Süleymanov. Dövlət qulluğuna müsabiqə yolu ilə qəbul. Bakı - 2017.

**1."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Milli Mühasibat Uçotu Standartları hansı orqan tərəfindən təsdiq edilən mühasibat uçotu standartlarıdır?**
A) Azərbaycan Respublikası Nazirlər Kabineti
B) Müvafiq icra hakimiyyəti orqanı
C) Azərbaycan Respublikası Prezidenti Administrasiyası
D) Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası
E) Mühasiblərin Beynəlxalq Federasiyası

**2."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bu qanunda istifadə olunan digər anlayışlar əsasən hansı normativ hüquqi aktda müəyyənləşdirilmiş mənaları ifadə edir?**
A) "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda
B) "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda
C) "Tender haqqında" Azərbaycan Respublikasının Qanununda
D) Azərbaycan Respublikasının Mülki Məcəlləsində
E) Azərbaycan Respublikasının Əmək Məcəlləsində

**3.Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən hüquqi şəxsin balansında olan torpaqların illik amortizasiya norması neçə faizdir?**
A)3 faizədək
B)Amortizasiya olunmur
C)15 faizədək
D)7 faizədək
E)14 faizədək

**4.Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən təmir xərclərinin məhdudlaşdırılan həddən artıq olan hissəsi hansı qaydada gəlirdən çıxılır?**
A) Gəlirdən tam həcmdə çıxılır
B) Növbəti vergi ilinin xərclərinə aid edilir
C) Mənfəətin azaldılmasına aid edilir
D) Gəlirdən çıxılmır və əsas vəsaitlərin qalıq dəyərinin artmasına aid edilir
E) Mənfəətin çoxaldılmasına aid edilir.

Nümunə

**5.Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən iş vaxtından artıq vaxtda görülən işə görə işçiyə əmək haqqının ödənilməsi hansı qaydada aparılmalıdır?**

A)Əməyin vaxtamuzd ödənilmə sistemində saatlıq tarif (vəzifə) maaşının üçqat məbləğindən aşağı olmamaqla ödənilməli

B)Tarif cədvəlinə uyğun olaraq adi qaydada əmək haqqı ödənilməli

C)Saatlıq tarif (vəzifə) maaşının birqat məbləğindəödənilməli

D)Saatlıq tarif (vəzifə) maaşının 1.5 misli məbləğində ödənilməli

E)Əməyin vaxtamuzd ödənilmə sistemində saatlıq tarif (vəzifə) maaşının ikiqat məbləğindən aşağı olmamaqla ödənilməli.

**6.Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən aşağıda göstərilənlərdən hansılar əmək haqqının tərkibinə daxildir? Tam və doğru cavabı tapın.**

A) Aylıq tarif (vəzifə) maaşı

B) Aylıq tarif (vəzifə) maaşı və ezamiyyə xərcləri

C) Aylıq tarif (vəzifə) maaşı və mükafatlar

D) Əlavələr və mükafatlar

E) Aylıq tarif (vəzifə) maaşı, əlavələr və mükafatlar

**7.Aşağıdakı ödənişlərdən hansı məzuniyyət vaxtı üçün orta aylıq əmək haqqı hesablanarkən nəzərə alınmalıdır?**

A) Ezamiyyə xərcləri

B) Maddi yardım şəklində verilən müxtəlif ödəmələr

C) Birdəfəlik xarakter daşıyan ödəmələr

D) Faktiki işlənmiş vaxt üzrə vəzifə maaşı

E) Yemək xərci

**8.İşçiyə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ilk 14 təqvim günü müddətində ödəniş kim tərəfindən ödənilməlidir?**

A) Azərbaycan Respublikası Dövlət Büdcəsinin ehtiyatları hesabına

B) Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən

C)Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən

D) İşlədiyi müəssisə tərəfindən

E) Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən

NÜMUNƏ

**9.Azərbaycan Respublikası Vergi Məcəlləsin əsasən aşağıda göstərilənlərdən hansılar amortizasiya olunmayan aktivlər qrupuna aiddir? Tam və doğru cavabı seçin.**

1. İstismar vaxtı çatmayan çoxillik əkmələr
2. İş heyvanları
3. Nəqliyyat vasitələri
4. Konservasiya edilmiş əsas vəsaitlər
5. Məhsuldar heyvanlar

A) 1,2,3 B) 2,3,5 C) 1,4,5 D) 3,4,5 E) 2,4,5

**10."Torpaq, tikili, avadanlıqlar" adlı 16 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən amortizasiya ilə bağlı aşağıdakı ifadələrdən hansı biri doğrudur?**

A)Bütün uzunmüddətli aktivlər amortizasiya olunmalıdır
B)Amortizasiya metodunda dəyişiklik uçot siyasətində dəyişiklikdir və bu, ayrılıqda açıqlanmalıdır.
C)Amortizasiya xərclərinin hesablanması yalnız düzxətt metodu əsasında aparılmalıdır.
D)Amortizasiya- amortizasiya edilmiş dəyərin həmin aktivin faydalı istifadə müddəti ərzində hər uçot dövrünə sistematik əsasda bölüşdürülməsidir.
E)İstifadəsiz uzunmüddətli aktivlər üzrə amortizasiya xərci hesablanmamalıdır.

**11."Gəlir" adlı 18 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalentlərindən istifadə edilməsi üçün təyin edilmiş haqqlar və ya müəssisəyə ödənilməli məbləğlər aşağıdakılardan hansılardır?**

A) Təxirəsalınmış gəlir
B) Dividendlər
C) Faiz gəliri
D) Royaltilər
E) İcarə haqqları

Nümunə

**12."Mal-material ehtiyatları" adlı №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən mal-material ehtiyatları ilkin dəyər əsasında qiymətləndirilən zaman aşağıdakı metodlardan hansından istifadə etmək mümkündür?**

A) Normativ dəyər

B) Orta dəyər

C) LİFO

D) Çəkili orta dəyər

E) Mümkün xalis satış dəyəri

**13."Qeyri-maddi aktivlər" adlı 38 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən müəssisə daxilində çəkilən hansı məsrəflər qeyri-maddi aktiv kimi tanınmır:**

1) Başlanğıc fəaliyyəti üzrə məsrəflər

2) Reklam məsrəfləri

3) Təlim məsrəfləri

4) Hazırlanmış, lakin həyata keçirilməmiş kompaniyalar üçün elan və marketinq məsrəfləri

A) 1, 2, 3, 4

B) yalnız 1,2

C) yalnız 2,3

D) yalnız 1,4

E) yalnız 2,3,4

**14."Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı 8 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən aşağıdakılardan hansılar kapitalda dəyişikliklər haqqında hesabatda təqdim edilməlidir?**

1. Kapitallaşdırılmış təcrübə-konstruktor məsrəfləri

2. Maliyyə ili üzrə mənfəət

3. Uzunmüddətli aktivlərin satışından yaranan zərər

A) Yalnız 1

B) 1 və 2

C) Yalnız 2

D) 2 və 3

E) Yalnız 3

NÜMUNƏ

**15. "Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı 8 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən uçot siyasəti nədir?**

A)Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı müəssisə tərəfindən tətbiq edilən müəyyən prinsiplərdir

B)Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı müəssisə tərəfindən tətbiq edilən müəyyən əsaslardır

C)Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı müəssisə tərəfindən tətbiq edilən müəyyən şərtlərdir

D)Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı müəssisə tərəfindən tətbiq edilən müəyyən qaydalardır

E)Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı müəssisə tərəfindən tətbiq edilən müəyyən prinsiplər, əsaslar,çərtlər və qaydalardır

**16."Qiymətləndirilmiş öhdəliklər, şərti öhdəliklər və şərti aktivlər" adlı 37 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən aşağıdakı ifadələrdən hansı doğrudur?**

1)Şərti aktivlərin meydana cıxacağı ehtimal edildikdə onlar maliyyə hesabatlarına aktiv kimi daxil edilir

2)Şərti öhdəliklərin meydana cıxacağı ehtimal edildikdə onlar maliyyə hesabatlarında göstərilməlidir

3)Qiymətləndirilmiş öhdəlik- vaxtı və ya məbləği qeyri-müəyyən olan öhdəlikdir.

4)Qiymətləndirilmiş öhdəlik kimi uçota alınan məbləğ hesabat dövrünün sonunda cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan xərcin ən yaxsı hesablanmış dəyəri olmalıdır

5)Aktivlərin gözlənilən satışından əldə ediləcək qazanc qiymətləndirilmiş öhdəliyin hesablanmasında nəzərə alınmalıdır.

A) 1, 2 və 3

B) 2, 3 və 4

C) 1, 3 və 4

D) 1, 3 və 5

E) 2, 4 və 5

NÜMUNƏ

**17."Pul vəsaitinin hərəkəti haqqında" 7 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən pul vəsaitinin hərəkəti haqqında hesabatda investisiya fəaliyyətindən pul vəsaitləri axınına aşağıdakılar hansı biri aiddir?**

A) Uzunmüddətli aktivlərin satışından daxilolma

B) Cəlb edilmiş borclar üzrə faizlərin ödənilməsi

C) Dividendlərin ödənilməsi

D Kredit alınması

E) Mal-material ehtiyatlarında artım

**18. "Aktivlərin dəyərdən düşməsi" adlı 36 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən dəyərdən düşmə zərəri nədir?**

A)Aktivin balans dəyəri ilə aktivin satış xərcləri çıxılmaqla ədalətli dəyəri arasında olan fərqdir

B)Aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərinə qədər azalmasıdır

C)Aktivin balans dəyərinin onun istifadə dəyərinə qədər azalmasıdır

D)Aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərinə qədər artmasıdır

E)Aktivin balans dəyərinin onun son qalıq dəyərinə qədər azalmasıdır

**19."Borclar üzrə məsrəflər" adlı 23 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına əsasən borclar üzrə məsrəflərə hansı məsrəflər aiddir? Tam və doğru cavabı müəyyən edin.**

1. Bank overdraftları və qısamüddətli və uzunmüddətli borc vəsaitləri üzrə faizlər
2. Borc vəsaitlərinə aid olan endirimlər və ya mükafatların amortizasiyası
3. Borc vəsaitlərinin alınması ilə əlaqədar yaranan məsrəflərin amortizasiyası
4. "İcarə" adlı 17 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq maliyyə icarəsi ilə bağlı maliyyə məsrəfləri
5. Faiz məsrəflərinə düzəliş kimi qəbul edildiyi dərəcədə xarici valyuta ilə götürülmüş borc vəsaitlərindən yaranan məzənnə fərqləri

A) 1, 2, 5

B) 2, 4, 5

C) 1, 2, 3

D) 1, 3, 4

E) 1, 2, 3, 4, 5

Nümunə

**20.“Mənfəət vergisi” adlı 12 nömrəli MUBS-a əsasən vergi tutulan mənfəət (vergi zərəri) hansıdır?**

A)Hesabat dövrü üzrə uçot mənfəətidir

B)Hesabat dövrü üzrə vergi qanunvericiliyinə uyğun olaraq müəyyən olunan və mənfəət vergisinin ödənildiyi (bərpa olunduğu) mənfəətdir

C)Vergi xərclərinin çıxılmasından əvvəl dövr üzrə xalis mənfəət və ya zərərdir.

D) İstifadə olunmamış vergi zərərinin gələcək dövrə keçirilən hissəsidir

E)İstifadə olunmamış vergi kreditlərinin gələcək dövrə keçirilən hissəsidir

NÜMUNƏ